Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

Abdulla Şaiq

# Yaxşı arxa



## Abdulla Şaiq

# Yaxşı arxa



Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı

Bakı –1939



Şəkilləri
rəssam P. Qrılov
çəkmişdir

Sabirabad elində
Şişli dağın belində,
Bir ac tülkü yaşardı,
Dərdi, qəmi daşardı.
Qalmayırdı dağ, dərə
Baş çəkirdi hər yerə.
Bir yerdə ov bilsəydi,
Ya uzaqdan görsəydi,
Quyruğunu diklərdi,
Güllə kimi gedərdi.
Görsə ağacda bir quş
Başından oynardı huş.
İstəyirdi yavaşca,
Dırmansın o ağaca,
Ancaq dişi batmazdı,
Əli quşa çatmazdı.
Ona baxdıqca yan-yan,
Dolurdu qəlbinə qan.
Qulağını diklərdi,
O, səsi hey dinlərdi.
Hərdən bir şey umardı,
Gözlərini yumardı.
Görərdi кöк cücələr,

Fərə, xoruz-becələr.
Qarşısında dənlənir,
Cikkildəşir, səslənir.
Açarkən tez gözünü,
Görürdü bir özünü.
Durar mırıldanardı,
Acığından yanardı.
Gəzərdi boş-boşuna,
Çıxardı dağ başına.
Dolaşardı o dağı,
Seyr edərdi uzağı.
Dəyməzdi ov gözünə,
Cıxardı çöl düzünə.
Həm ac, həm yorğun-arğın
Nəşəsiz, həm də darğın.
Sərilib ot içinə,
Girərdi ya biçinə.
Tez başını atardı,
Qıvrılardı yatardı.
Aclıq, kədər, düşüncə
Ona əsər edincə,
Yuxu ondan qaçardı,
Gözlərini açardı.



Bir gün o, çox düşündü,
Qara fikrə büründü.
Başı döndü dumana
Birdən gəldi ağlına:
Yaxında bir yamac var
Yanında bir ağac var.
Adı çinardır gərək,
Onun başında leylək,
Gördüm bala çıxarmış,
Hər balası beş qarış.
Ona qursam bir hiylə,
Bir şey gətirrəm ələ?
Getdi qapdı bir mişar
Dedi axtaran tapar.
Gəldi, əli cibində,
Durdu çinar dibində.
Arğın, yorğun, qarnı ac,
Ətə, çörəyə möhtac.
Dedi: "A leylək baba,
Köç bu ağacdan daha!
Bu çöl, yamac, bu orman
Mənə qalmış atamdan.
Bugün üç gündür acam,



Bir löqməyə möhtacam.
Bu çinarı kəsməyə,
Gəldim, əzizim!"– deyə,
Əl apardı mişara,
Çəkdi onu çinara.
Ağac başında leylək
Dərindən inləyərək,
Başladı yalvarmağa.
Dedi: “A tülkü ağa,
Mərhəmət et, ay aman!
Kəsmə çinarı, dayan!
Gəl yuvamı dağıtma,
Göz yaşımı axıtma,!
Balalarım lüməkdir,
Qanadları gödəkdir.
Ağac başından yerə,
Dəyərsə birdən-birə,
Tələf olar, ay gözüm,
O dərdə necə dözüm?”
Tülkü dedi: “Yox, olmaz
Bir dəqiqə yaramaz!”
Əl apardı mişara,

Çəkdi onu çinara,
Leylək birdən bağırdı,
Gözündən yaş yağırdı.
Dedi: “Aman tələsmə,
Dayan, çinarı kəsmə!
Üç balam var, birini
Versəm, doyurar səni.
Bu çinardan götür əl
Tülkü baba, rəhmə gəl!"
Tülkü ağa şöngədi,
Qulağını diklədi.
Dedi: “Daha nə etmək?
At aşağı, a leylək!”
Leylək dayandı bir az,
Ana balaya qıymaz.
Qıymadı balasına,
Ağladı yana-yana.
Baxdı üç yavrusuna,
Varmadı onun əli,
Baxdı ona kədərli.
Gördü tülkü gözləyir,
Onu yerdən səsləyir.





Leylək dedi: "Ay aman,
İşim oldu nə yaman".
Qəlbində sönməz kini,
Uzatdı dimdiyini
Balasını yuvadan
Atdı, ürəyində qan.
Tülkü qapdı havada,
Parçaladı orada.
Çəkdi balta dişinə,
Yedi getdi işinə.
Keçdi bir üç gün daha,
Qudurdu tülkü ağa.
Birbaşa durdu yenə,
Gəldi çinar dibinə.
Dedi: "A leylək baba,
Köç bu ağacdan daha!
Yenə üç gündür acam,
Bir löqməyə möhtacam.
Həyatım olmuş acı,
Kəsməliyəm ağacı!"
Əl apardı mişara,
Çəkdi onu çinara.

Leylək bağırdı: “Ay vay,
Əməyimi etmə zay.
Gözümün ağ-qarası,
Ürəyimin parası
İki balam qaldı, bax
Olsun başıma torpaq.
Daşmı mənim ürəyim?
Anayam, var diləyim.
Qıymaram heç birinə.
Toxunma saf qəlbinə.
Qoy tükünü uzatsın,
Qanat çalsın, boy atsın
O zaman al mişarı.
Kəs dibindən çinarı!"
Tülkü dedi: “Yox olmaz!"
Kəsmək üçün çinarı,
Götürdü tez mişarı.
Leylək dedi: "Tələsmə,
Dayan, çinarı kəsmə!"
Od tutdu yana-yana,
Ürəyi döndü qana.
Bir balasını yenə,





Alaraq dimdiyinə.
Öpdü iki gözündən,
Dimdiyindən, üzündən,
Atdı birdən aşağı,
Dedi: "Al murdar yağı".
Tülkü qapdı havada,
Parçaladı orada.
Yedi oldu, sevincək,
Quyruğunu tutdu şək,
Yerindən birdən durdu,
Bığlarını bir burdu,
Getdi əli belində,
Gəzdi ceyran çölündə.
Qonşu ağacda qarğa,
Qonmuşdu bir budağa.
Görürmüş qanlı işi,
Tülküdəki gəlişi,
O, leyləyə acıdı,
Dimdiyini qıcıdı.
Dedi: "A leylək, sənin
Qara daşdır ürəyin.
Bax gör, bir neyləyirsən

Öz balanı verirsən
Acgöz, murdar tülküyə,
Dəb salırsan ölkəyə".
Leylək onu dinlədi,
Lap dərindən inlədi.
Dedi: “Neyləyim, qardaş?
Düşsün üstümə bir daş.
De görüm hansı ana,
Qıyar öz balasına?
İşim düşmüşdü dara,
Tapmadım başqa çara.
Əlindəki mişarı,
Görmədinmi? Çinarı
O insafsız kəsirdi,
Canım zağ-zağ əsirdi”.
Qarğa dedi: “Ay axmaq!
Sadədilliyi burax!
Pis olar yoxsa halın,
Yox şüurun, kəmalın.
Uzunboy, uzunboğaz,
Xeyrə-şərə yaramaz.
Ayaqların bir arşın,





Ondan uzundur başın.
Ağlın ancaq gödəkdir,
Adın hacıleyləkdir.
Yox o boyun faydası,
Hər işin var qaydası.
Hiylə gəlir o, sənə,
İnanırsan düşmənə.
Olsa min bir mişarı,
Kəsə bilməz çinarı.
Sənə gəlir o, kələk,
Burax qoy kəssin görək".
Leylək dedi: “Ay oğul,
Bunu bilmirdim sağ ol!
Oxumamış adamam,
Yazı, pozuya yadam.
Saldın məni sən başa,
Ömrün dəyməsin daşa”.
Keçdi bir üç gün yenə,
Gəldi çinar dibinə.
Tülkü ağa çöməldi,
Tez mişara yönəldi,
Dedi: “A leylək baba,

Köç bu ağacdan daha!”
Leylək cavab vermədi,
Ona baş endirmədi.
Kəsmək üçün çinarı,
Tülkü aldı mişarı.
"Köç bu ağacdan, – dedi, –
Məni bu aclıq yedi.
Gərək kəsilsin çinar,
Buna bir sözünmü var?"
Tülkü dartdı özünü,
Bitirməmiş sözünü.
Leylək boynun uzatdı,
Tüklərini qabartdı.
Dedi: "Sus, alçaq, azğın!
Yetişər aldatdığın!
Məni turptək əkmisən,
Qəlbimə dağ çəkmisən.
Anlamışam işini,
Nə qıcıyıb dişini
Kəc baxırsan üzümə?
Get, görünmə gözümə".
Tülkünü heyrət aldı,





Yerində dinməz qaldı.
Dərdə, qəmə büründü,
Dərin-dərin düşündü.
Sonra dedi: “Ah, murdar,
Səni bir öyrədən var!"
Turşutdu tez üzünü,
Dolandırdı gözünü.
Ürəyi yana-yana,
Baxdı oyan-buyana.
Birdən gördü qarğanı,
Qəlbində dondu qanı.
Dedi: “Aha! Bu qarğa,
Olmuş leyləyə darğa.
Yoxsa bir şey qanmazdı,
Hiyləni anlamazdı!“
Sonra yenə şöngədi,
Qulağını diklədi.
Dedi: “Ay murdar qarğa,

Paxıl, gözü dar qarğa,
Bu nə cürətdir etdin?
Bu leyləyi öyrətdin.
Bununla, ey yaramaz,
Sənin ki qarnın doymaz.
Söylə mənə bir görək,
Boynu uzun bu leylək
Bacındır, qardaşındır?
Ya yaxın yoldaşındır,
Nə bəxşiş etdi sənə?
Yamanlıq etdin mənə?
Əyri yol ilə getdin
Halal ruzumdan etdin.
Olsun iki gözün kor,
İndi bircə dayan, gör,
Bir gün üzüb başını,
Bişirrəm mən aşını".
Qalxdı, suyu süzülmüş,



Ağzı, gözü büzülmüş.
Meşə ilə gedirdi,
Mırıldanıb deyirdi:
“Ay paxıl, şeytan qarğa,
Səbr et, bir dayan, qarğa.
Sənə qurum bir kələk,
Aləmə olsun örnək“.
Günəş üfüqdə söndü,
Yavaş-yavaş büründü
Çən, dumana, çöl, çayır,
Yamac, dərə, dağ, bayır.
Çökdü dərin qaranlıq,
Dumanlandı ortalıq.
Yuxu zamanı gəldi,
Qurdlar, quşlar çəkildi.
Bulud altından yalnız,
Göz qırpırdı ay, ulduz.
Yox, səs-səmir bir yerdə,
Ancaq boş dərələrdə,
Sular çağlar, gülümsər,
Sıra dağlar səs verər.

Bir hiylə qursun deyə,
Tülkü girdi meşəyə.
Uzandı ac və yorğun,
Əhvalı xeyli pozğun.
Qarnı quruldayırdı,
Durub mırıldayırdı.
Yuxu girməz gözünə,
Deyinir öz-özünə:
"Fələk, bu qanlı səhər,
Açılmayacaq məyər?"
O gözlərdi bir fürsət,
Hər dəqiqə, hər saat
Bir il keçirdi ona.
Qalmışdı yana-yana.
Uzun gecəni oyaq,
Başa vurdu bir sayaq.
Ağarırdı dan yeri,
Duyunca xoş səhəri
Silkələdi özünü,
Açdı iki gözünü,
Bir əsnədi, gərnəşdi,
Ürəyini qəm deşdi.





Durdu, çıxdı çaladan,
Qalmamışdı onda can.
İlan kimi süründü,
Kiçik tarla göründü.
Baxdı oyan-buyana,
Döndü qorxaq dovşana.
Başından uçmuşdu huş,
Oyanmamışdı bir quş.
Qarğış tökdü qarğaya,
Gəldi yaşıl tarlaya.
Bir az baxdı, dayandı,
Ölü kimi uzandı.
Soxdu ota üzünü,
Tez qapadı gözünü.
Al şəfəqlər söküldü,
Sisli üfüqlər güldü.
Günəş doğdu qırmızı,
Parladı yer ulduzu,
Hər yan rəngə boyandı.
Şux təbiət oyandı.
Yayıldı al şəfəqlər,
Canlı, cansız gülümsər.



Çaylar, çöllər, çayırlar,
Dağlar, düzlər, bayırlar.
Rəngə, nura büründü,
Hər şey gözəl göründü.
Açır əlvan çiçəklər,
Uçuşur kəpənəklər.
Quşlar atılır düşür,
Şaqır-şaqır ötüşür.
Qaynar yenə şən həyat,
Çırpınar, çarpar qanad.
Hər şeydə var lətafət,
Gülümsəyir təbiət.
Səfa icində hər yan,
Yalnız tülkü bağrı qan.
Qarğacığı tutmağa,
Çalışır tülkü ağa.
Qonub yaxın budağa,
Qarıldayırkən qarğa.





Gördü uzanmış tülkü,
Tikan kəsilmiş tükü,
Üzü, gözü büzüşmüş,
Yerə ölütək düşmüş.
Uzanmış o, tarlaya
Olmuş cansız bir qaya.
"Bax, bu, hiylədir", – deyə,
Qarğa güldü tülküyə.
Dedi: “Ay uzun qulaq,
Məni sanırsan axmaq?
Şeytan kimi yatırsan
Mənə yalan satırsan?
Elə bildin, duymaram,
Yox, hiylənə uymaram“.
Tülkü çıxarmadı səs,
Almayırdı heç nəfəs.
Qarğa baxdı bir müddət,
Qəlbində yandı həsrət.
Dedi ki, bu hiyləgər,
Ölmüş olsaydı əgər,
Səhər, günorta, axşam,
Mən də edərdim bayram.



Başını mən yeyərdim,
Dimdiyimi silərdim.
Atılardım ağaca,
Səs salardım yamaca.
Eşitsə bunu leylək,
Olacaqdır sevincək".
Qarğa baxdı bir zaman
Gördü yox tülküdə can.
Dedi: “Canı çıxmışdır,
Aclıq onu yıxmışdır.
Aldanmaq olmaz ancaq
Gərəkdir ayıq olmaq”.
Uçdu gəldi o birbaş,
Götürdü bir kiçik daş.
Qoydu onun buduna,
Diqqətlə baxdı ona.
Dedi: “Yoxsa bu zirək
Mənə gəlir bir kələk?
Səhər yenə gələrəm,
İşi yəqin bilərəm.
Ölməmiş olsa əyər,
Bu daş üstündən düşər.







Onda demək diridir,
Hiyləgərin biridir".
Birdən yüksəldi qarğa,
Uçdu, getdi uzağa.
Tülkü duydu bu işi,
Gördü, batmadı dişi.
Söylədi: “Ay hiyləgər,
Qoy bir açılsın səhər.
Bu günü də vur başa,
Bir gün də artıq yaşa.
Sabah yəqin tutaram,
Birnəfəsə udaram”.
Tülkü doymuşdu cana,
Göz gəzdirdi hər yana.
Baxdı o, hər budağa,
Gördü ki, yoxdur qarğa.
Qalxdı, üstünü sildi,
Meşəliyə çəkildi.
Susuz, ac, darğın, yorğun,
Nəşəsiz, halı pozğun.

Gözü ovda və quşda,
Dərələrdə, yoxuşda.
Hər çalaya soxur baş
Çala kəsilir bir daş.
Nə kəklik var, nə turac
Ona düşmən dağ, yamac.
Nə qırqovul, bildirçin,
Nə sərçə, nə sığırçın.
Hər şey çıxmışdı yoxa,
Göz yaşı axa-axa
Çox axtardı dolaşdı,
Qan-tər başından aşdı
Qurtardı lap qüvvəti,
Qalmadı heç taqəti.
Leyləyi etdi tez yad,
Qarğadan çəkdi min dad.
Oxu toxundu daşa,
O günü vurdu başa
Axşam sular qaraldı,
Ətrafı zülmət sardı.
Daşdı, dərdi çox oldu,
Bir çalaya soxuldu.

Atdı yerə başını,
Tökdü o göz yaşını.
Boşa çıxmışdı oxu,
Girməz gözünə yuxu.
Mırıldanır, eşənir,
Torpaqlara döşənir.
Bir il keçdi o gecə,
Qızıl şəfəq söküncə,
Silkələdi özünü,
Açdı iki gözünü.
Tülkü qalxdı yerindən,
Aşdı kiçik bir dərə,
Bir ah çəkdi dərindən
Gəldi dünənki yerə.
Həmən daşı üstünə
Qoydu, uzandı yenə.
Daha günəş doğurdu
Dumanları boğurdu.
Ağac başında qarğa,
Qayıldayırkən “qa, qa”
Gördü yatan tülkünü
İşıqlandı tar günü.

Uzanmış öz yerində,
Qoyduğu daş üstündə.
Qarğa oldu sevincək,
Dedi: "Aha, ay tülək!
Bulandırıb saf suyu,
Qazıdın dərin quyu,
Özün düşdün quyuya,
Dərin, bulanıq suya.
Aclıq səni sıxmışdır,
Artıq canın çıxmışdır.
Qəbul olmuşdur duam,
Bu gün mənimçün bayram".
Diqqətlə baxdı ona,
Uçdu, qondu yanına.
Dimdiklədi bir, iki,
Çıxarmadı səs tülkü.
Qondu onun başına,
Gözlərinə, qaşına.
Dimdik vurarkən, birdən
Tülkü sıçradı yerdən.
Elə tutdu qarğanı,
Az qaldı, çıxsın canı.







Dedi: "A fitnə, şeytan
Qurtarmazsan daha can.
Sən leyləyi öyrətdin,
Məni ruzumdan etdin.
Bilmədin, ay yaramaz,
Mənə dolaşmaq olmaz?
Alacağam intiqam,
Bugün mənimçün bayram".
Qarğa dedi: “Ay gözüm,
Yox deyəcək bir sözüm.
Ye! Ancaq, ey bəxtiyar,
Bircə vəsiyyətim var,
Əvvəl onu deyərsən:
Sonra məni yeyərsən!
Yaxınlaşır bax əcəl,
Vəsiyyətə et əməl!“
Tülkü dedi: “Dayanma,
Tez ol, söylə, yubanma!“
Qarğa dedi: “Tülkü bəy,
Əcəl çatdı, nə etmək.
Halal olsun ətim, ye!
Ancaq bu sözləri de:







Gorsuz, kəfənsiz qarğa,
Yurdsuz, vətənsiz qarğa
Həsrətlə keçdi ömrün,
Yazıq sənə "qa-qa-qa!.."
Tülkü durdu deməyə,
Hazırlandı yeməyə,
Quyruğunu tutdu şək,
Deyirdi çox sevincək:
"Gorsuz, kəfənsiz qarğa,
Yurdsuz, vətənsiz qarğa,
Həsrətlə keçdi ömrün,
Yazıq sənə, "qa-qa-qa!"
Deyirkən tülkü bəy "qa"
Ağzından çıxdı qarğa,
Bir ox kimi ucaldı,
Tülkü yerində qaldı.
Uçdu göylərə qarğa,
Qondu yaxın budağa.
Baxıb güldü tülküyə,
"Hünərin var, tut"—deyə,
Tülkü alışdı, yandı.
Öz işindən utandı.

Abdulla Şaiq

**Yaxşı arxa**
(nağıl)

Redaktorları: **M.Seyidzadə**
Texniki redaktoru: **M.F.Miriyev**
Korrektoru: **M.Aslanov**

İstehsalata verilmiş 1/IX-38
Çapa imzalanmış 29/IX-38
Çap listi 1 3/4. Kağız formatı 72x105 1/32
Baş Mətbuat Müdirliyi
Müvəkkilliyi № 5816
Nəşriyyat № 1. Tiraj 10000. Sifariş № 964

Azərnəşr mətbəəsində çap olunub
26-lar adına "Kitab Sarayı"
Bakı, Əli Bayramov küçəsi.

Bərpa nəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 3,5 ç.v.
Sifariş 33
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS – A"

